## Azərbaycan dili

1. Hansı sözlərdə orfoepik norma pozulub?
1. [zə:fəran] 2. [səvi:yə]
3. [nə:rə] 4. [tarixilik]
5. [tə:bil]
A) 1, 2, 3 B) 1, 4, 5 C) 2, 4, 5
D) 2, 3, 4 E) 1, 3, 5

2. Sözlərin düzgün orfoqrafiyası ilə bağlı cədvəldəki hansı sözlərin yeri dəyişilsə, cədvəldəki ***yanlışlıq*** düzələr?

| Düzgündür | Yanlışdır |
|---|---|
| 1. abbreviatur | 5. yubley |
| 2. treninq | 6. virtioz |
| 3. sürpriz | 7. üvertura |
| 4. səhmdar | 8. kompüter |

A) 2-6 B) 3-7 C) 4-5
D) 1-8 E) 1-7

3. Həm yazılışı, həm də tələffüzü ***yanlış*** olan sözü müəyyən edin.
A) ağılabatan – [ağılabatan]
B) başıaçıq – [başaçıx]
C) casus – [casus]
D) deklorasiya – [dek’larasiya]
E) ehtiyac – [ehdiyaç]

4. Hansı sözdə nöqtələrin yerinə “i” hərfi yazılmalıdır?
A) müşk...l B) müh...m C) b...ro
D) təkam...l E) mürş...d

5. “Bəxtiyarlıq” və “hazırlanmaq” sözlərinin fonetik xüsusiyyətlərinə aid ortaq cəhəti müəyyən edin.
A) Açıq, qapalı və incə saitlər işlənmişdir.
B) Sonuncu samit cingiltilidir.
C) Kar qarşılığı olmayan [l] samiti işlənmişdir.
D) Beş cingiltili samit işlənmişdir.
E) Hər birində kar qarşılığı olmayan bir [r] samiti var.

6. Tələffüzündə səs uzanması olan terminləri müəyyən edin.
1. sinekdoxa 4. istiarə
2. təyin 5. metonimiya
3. mübaliğə
A) 1, 2, 3 B) 2, 3, 4 C) 1, 2, 4
D) 1, 5 E) 3, 5

7. Birinin omonimlik xüsusiyyəti ***yoxdur***.
A) nərə B) çiçək C) yal
D) kürək E) şan

8. Antonim sözlərlə bağlı ***yanlış*** fikirdir.
A) Əksmənalı sözlərdir.
B) Eyni nitq hissəsinə aid olur.
C) Fərqli quruluşda ola bilmir.
D) Deyilişi və yazılışı fərqli olur.
E) Bədii təzad yaradır.

9. Hansı bənddə sinonimik cərgə ***pozulub***?
A) yaş, nəm, sulu
B) iztirablı, zülm, əzab
C) əyan, bəlli, məlum
D) bədən, vücud, gövdə
E) birdən, qəfildən, qəflətən

10. Hansı frazeoloji birləşmələrin mənaları düzgün ***göstərilməmişdir***?
1. Əldən salmaq – yormaq
2. Göz vurmaq – gözün birini yumub birini açmaq
3. Saman altından su yeritmək – gizlin iş görmək
4. Dara düşmək – dar ağacından asılmaq
5. Göylə getmək – lovğalanmaq
6. Ürəyinin yağını yemək – çox istəmək
A) 1, 3, 5 B) 1, 2, 4 C) 2, 4, 6
D) 3, 5, 6 E) 2, 3, 4

11. Cədvələ əsasən doğrudur.

| **Frazeoloji birləşmə** | **Sinonimi** | **Həqiqi mənalı qarşılığı** |
|---|---|---|
| Səbir kasası daşmaq | 1. Hövsələdən çıxmaq | 4. Cin atına minmək |
| Taleyi üzünə gülmək | 2. Bəxti açılmaq | 5. Qazanmaq |
| Dalağı sancmaq | 3. Küyə düşmək | 6. Şübhələnmək |

A) 1, 2, 3 B) 4, 5, 6 C) 1, 4, 5
D) 1, 2, 6 E) 2, 3, 4

12. Frazeoloji birləşmələrə aid düzgün fikirləri müəyyən edin.
1. Asılı birinci, əsas ikinci tərəfi olur.
2. Frazeoloji birləşmə feili birləşmənin asılı tərəfi ola bilər.
3. Sintaktik təhlil zamanı bütün cümlə üzvləri rolunda çıxış edə bilir.
4. Frazeoloji birləşmələr mürəkkəb cümlə üzvü olur.
5. Frazeoloji birləşmələr mürəkkəb cümlə üzvü olmur.
A) 1, 2, 4 B) 1, 4, 5 C) 2, 3, 5
D) 2, 3, 4 E) 1, 3, 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

Tme/BirlikTeam1

13. “Körpə budaq əl açıbdır yağışa” (Musa Yaqub) nümunəsində birinci sözün leksik təhlilinə aid ***yanlış*** fikri müəyyən edin.
A) Çoxmənalı sözdür.
B) Məcazi mənada işlənib.
C) “Uşaq” sözü sinonimi deyil.
D) “Çağa” sözü sinonimidir.
E) Omonimliyi yoxdur.

14. Hansı bəndə aid xüsusiyyət ***verilməyib***?
- Sözlərin leksik mənaları izah olunur.
- Sözlərin düzgün yazılışı əks olunur.
- Sözlərin düzgün deyilişi əks olunur.
- Sözlərin mənşəyi, nədən törəməsi izah olunur.
A) orfoqrafiya lüğəti
B) orfoepiya lüğəti
C) izahlı lüğət
D) tərcümə lüğəti
E) etimoloji lüğət

15. Hansı nümunədəki sözlərin hər ikisi məcazi mənadadır?
A) dil pəhləvanı
B) kompüterin beyni
C) mülayim xasiyyət
D) şirin yumor
E) ünlü sənətçi

16. Cümlələrin birində eyni söz həm çoxmənalı, həm də omonimlik xüsusiyyətinə malikdir?
A) Qızın işıqlı gözləri gülümsəyirdi.
B) Buradan dənizi seyr edirəm.
C) Hər qaranlıq gecənin gündüzü ümid doğurur.
D) Sözü dedin, sənin deyil.
E) Yolçu uzaqlaşıb gözdən itdi.

17. Nitqə aid düzgün fikirlərdir.
1. Mimika və jest nitqə müəyyən emosionallıq verir.
2. İnsanlar arasında ünsiyyət vasitəsidir.
3. Dinləyib anlama şəklində də təzahür edir.
4. Nitq mədəniyyətinin ən mühüm şərti ədəbi dilin normalarına əməl etməkdir.
5. Dil və nitq bir-birilə üzvi surətdə bağlıdır və dil nitqdən törəyir.
A) 1, 2, 3 B) 3, 4, 5 C) 1, 3, 5
D) 1, 3, 4 E) 2, 4, 5

18. Leksik normanın pozulduğu cümləni müəyyən edin.
A) Ataların var-dövləti çox vaxt övladlara bədbəxtlik gətirir.
B) Almazı ancaq almaz cilalaya bilər.
C) Xalqımız firavan yaşamağa məhkumdur.
D) Azadlıq verilmir, alınır.
E) Adamları öyrətmək, onları öyrənməkdən asandır.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

19. Hansı bənddə qrammatik norma ***pozulmuşdur***?
A) Mütəxəssislər uçmuş kənd körpüsün təmir etdi.
B) Onun qarşısında əlində çomaq, zırpı bir adam durmuşdu.
C) Qartallar bu qorxunc qayalıqlarda qıy vururdu.
D) Sən və o, tədbirdən sonra yaxınlaşarsınız.
E) Bulağın suyu göz yaşı kimi duru idi.

20. Hansı bənddə poetizm ***işlənməmişdir***?
A) Dağın ətəyindəki duman yavaş-yavaş yuxarı sürünürdü.
B) Səhərin gözü açılmamış yolda hərəkət başlayırdı.
C) Dalğalar sevinirdi gəlişimizə.
D) Mən kərpicdən tikilmiş bu köhnə evdə doğulmuşdum.
E) O xəyallarımın uçduğu yerdə hamıdan küsmüş bir ev gördüm.

21. Ədəbi dilin üslublarının hamısına aid xüsusiyyətləri müəyyən edin.
1. Fərdi üslubun təzahürü.
2. Ciddi nitq normalarına əməl edilməsi.
3. Standart formalardan istifadə
4. Sözün informativ funksiyasından istifadə edilməsi
5. Sözlərin müxtəlif mənalarda düşünülməsinə şərait yaratmaq.
A) 1, 2, 3 B) 2, 4 C) 2, 3, 5
D) 4, 5 E) 1, 3, 5

22. Verilmiş nümunənin aid olduğu üslubun xüsusiyyətlərini müəyyən edin.
*“Fərdi şüurdan ictimai şüura keçmək, xalqın mədəni səviyyəsini yüksəltmək kimi mühüm prosesdə ədəbiyyatla yanaşı kinonun və teatrın rolu çox böyükdür.”*
1. dəqiqlik 4. sərbəstlik
2. obrazlılıq 5. təsirli
3. anlaşıqlı 6. məntiqlilik

A) 1, 6 B) 2, 4 C) 3, 5
D) 3, 6 E) 1, 5

**Açıq tipli test tapşırıqları:**

23. Mücərrəd mənalı düzəltmə isimləri müəyyən edin.
1. məhsuldar 4. inanc
2. gərginlik 5. kimyagər
3. izdiham

t.me/BirlikTeam1

24. Hansı cümlələrdə ikinci və üçüncü şəxsin təkinin mənsubiyyət şəkilçisini qəbul etmiş isimlər işlənmişdir?
1. Qəlbimə nisgil gətirən bu fikri başımdan qovuram.
2. Sənin planın şəhərin baş planına uyğun gəlir.
3. Kəndin ağsaqqalı suyun mənbəyini göstərdi.
4. Kitab mağazasında sənin dediklərin də var.
5. Gözün ceyran gözü, kirpiyin oxdur

25. Qrammatik cəhətdən həmişə tək olan isim işlənmiş cümlələri müəyyən edin.
1. İctimaiyyətin fəal olduğu ölkələrdə demokratik institutlar güclü olur.
2. Soyuq qış gününün birində qapımız asta-asta döyüldü.
3. Lahıc əhalisinin xeyli hissəsi sənətkarlıqla məşğul olur.
4. Dünyanın ən qədim yaşayış məskənlərindən biri də Azərbaycandır.
5. Qonaq qaldığımız evin döşəməsi qamış və həsirdən ibarət idi.

26. Hansı cümlələrdə ismin quruluşca hər üç növünə aid nümunə var?
1. Şagird qələmdanını kitabxanada yadından çıxarmışdı.
2. Ayaqsız bir uşağa rast gələnə qədər ayaqqabısız olduğum üçün kədərlənirdim.
3. Ağıllıların əlaməti bədbəxtliyi qabaqcadan görmək, igidlik isə bədbəxtliyə qalib gəlməkdir.
4. Azadlıq ifrat dərəcəsinə çatdıqda özbaşınalığa çevrilir.
5. Axırını düşünə-düşünə döyüşə girəndən igid olmaz.

27. Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| | | |
|---|---|---|
| 1. | "Qardaş" sözü sadə, "yoldaş" sözü isə quruluşca düzəltmə isimdir. | a. doğrudur<br>b. yanlışdır |
| 2. | "Daşı" sözü həm çoxmənalı, həm də omonimlik xüsusiyyətinə malikdir. | c. doğrudur<br>d. yanlışdır |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

### *Mətn sualları*

Aprel ayı idi. Uzaq bir qəsəbənin uzaq bir hotelində otaq tutmuşdum. Otağın pəncərəsinin kömür mədəninə açıldığını gördüm. Deməli, hər gün pəncərəni açacaq və hər dəfə kömür anbarını görəcəkdim. Bunları düşünürdüm ki, birdən pəncərənin yanında bir masa gördüm. Masanın üzərində bir vaza, vazanın içərisində isə bir dəstə qızılgül var idi. Yanında isə üzərində nə isə yazılmış bir kağız var idi.

Kağızda yazılmışdı: "Ora baxmaq əvəzinə, bura bax! İmza: Otağın əvvəlki sahibi!..." Birdən sanki qaranlıq bir yerdən çıxıb işıqlı bir yerə düşdüm. O qədər xoşbəxt idim ki, o bir həftənin belə necə keçdiyini bilmədim. Həftənin axırında isə qızılgüllərin əvəzinə bir dəstə qərənfil qoyub otaqdan çıxdım. İndi hər dəfə bu hadisəni xatırlayır və "otağın əvvəlki sahibinin" mənim kimi neçə nəfərin "həyatını xilas etdiyini" düşünürəm.

28. Mətndə çərçivə daxilində verilmiş cümlədə bir söz mətnin məzmununa uyğun işlədilməmişdir, onu hansı sözlə əvəz etmək olar?

29. Mətndə altından xətt çəkilmiş cümlənin sonuncu sözünü məzmuna uyğun məcazi mənalı ifadə ilə əvəz edib yazın.

30. Mətnin giriş hissəsində işlənmiş məcazi mənalı sözü müəyyən edib həqiqi mənada başqa cümlədə işlədin.

## Tarix

31. I Nikolayın 1840-cı il inzibati - məhkəmə islahatı haqqında qanununa əsasən:
1. Sahibkar kəndilərinə öz pay torpaqlarını satın almaq hüququ verildi
2. Komendant idarə üsulu ləğv olundu
3. Xəzər vilayəti və Gürcüstan – İmeretiya quberniyası yarandı
4. Rusiyanın mərkəzi əyalətlərində təhkimçilik ləğv edildi
5. Rusiyada müvəqqəti mükəlləfiyyətliliyə son qoyuldu
A) 2, 3 B) 1, 4 C) 4, 5
D) 1, 2 E) 3, 5

32. Hadisə - Nəticə əlaqələrinin ***doğru*** göstərildiyi cavabı müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | Ahşerinin İskit hökmdarı İşpakay ilə müttəfiq olması | Aşşurbanipalın məğlub edilməsi |
| 2 | Turukkilərin Assurlarla toqquşmada qalib gəlməsi | Kuti dövlət qurumunun süquta uğraması |
| 3 | Kuti hökmdarı Tirikanın hakimiyyətinin sona çatması | Kuti dövlət qurumunun süquta uğraması |
| 4 | Sirdakka şəhərində müqavilə imzalanması | Assuriyanın Urartunun işğal etdiyi Manna torpaqlarını geri qaytarması |
| 5 | Mannada Şuandahul və Durdukka şəhərlərində üsyan baş verməsi | II Sarqonun üsyançı şəhərləri darmadağın etməsi |

A) 1, 2 B) 4, 5 C) 2, 3
D) 1, 4 E) 3, 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

33. Eyler- Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:




a. E.ə VII əsrdə müstəqillik uğrunda xalq hərəkatı baş verdi
b. Selevki (Suriya) dövlətinin parçalanması nəticəsində meydana gəldi
c. Roma yürüşlərinə qarşı mübarizə aparmışdı
d. Roma ilə III əsrə qədər siyasi-iqtisadi əlaqələri davam etdirmişdi
e. Parfiya tərəfindən dövlətçiliyinə son qoyuldu
A) 1-e; 2-d; 3-c
B) 1-a; 2-d; 3-c,e
C) 1-a,b; 2-c; 3-d
D) 1-e; 2-b; 3-c
E) 1-b; 2-a; 3-d,c

34. II Vaçenin Sasanilərə qarşı azadlıq hərəkatının nəticəsində:
1. Albaniyanın daxili müstəqilliyinə son qoyuldu
2. Albaniya Sasani mərzbanları tərəfindən idarə edilməyə başlandı
3. Albaniyada Arşaki sülaləsinin hakimiyyəti sona çatdı
4. Cənubi Qafqaz Roma və Sasani dövlətləri arasında nüfuz dairələrinə bölündü
A) 3, 4 B) 1, 3 C) 1, 2
D) 2, 4 E) 2, 3

35. Uyğunluğu müəyyən edin:
1. I Tutmos
2. III Tutmos
3. II Ramzes
a. Hakimiyyət uğrunda mübarizələr nəticəsində ərazilərin bir qismini itirdi
b. Misirin cənubunda Nubiya tabe edildi
c. Fələstin və Suriyanı idarə etmək üçün canişinlər təyin etdi
d. Suriya uğrunda müharibədə qəti qələbə qazana bilmədi
A) 1-a; 2-b; 3-c
B) 1-c; 2-a; 3-b
C) 1-d; 2-b; 3-a,c
D) 1-b; 2-c; 3-d
E) 1-b; 2-d; 3-a

36. XIX əsrin 60-cı illəri üçün xarakterikdir:
A) Teleqraf xətlərinin istifadəyə verilməsi
B) Bakı şəhərində mərkəzləşdirilmiş telefon stansiyasının işə salınması
C) Kəndlilərdən hərbi verginin alınmağa başlanması
D) Bakıda ilk toxuculuq fabrikinin açılması
E) Gədəbəydə Qalakənd zavodunun inşası

37. III Dara və Çandraquptanın fəaliyyətlərinə aid ümumi cəhət:
A) Makedoniyaya qarşı mübarizə
B) Vahid dövlətin qurulması
C) Şimal-qərbi Hindistanın tabe edilməsi
D) Sin imperiyası ilə uzun sürən çəkişmələr
E) E.ə III minillikdə fəaliyyət göstərmələri

38. Uyğunluğu müəyyən edin:




A) 1-c; 2-c B) 1-b; 2-a,c C) 1-b,c; 2-a
D) 1-a,b; 2-a E) 1-a,b; 2-b

39. Xəritədə ştirxlənmiş erkən orta əsr feodal dövlətinə aid xüsusiyyətləri müəyyən edin:




1. Haşim ibn Suraka tərəfindən müstəqil idarə edilirdi
2. 859-cu ildə iqamətgahı Gəncəyə köçürüldü
3. Məzyədi sülaləsi tərəfindən idarə olunurdu
4. 1032-1033-cü ildə Slavyan, alan və sərir tayfaları tərəfindən paytaxtı qarət edildi
A) 3, 4 B) 1, 2 C) 2, 3
D) 1, 4 E) 2, 4

40. Uyğunluğu müəyyən edin:




A) Dərbənd səddi
B) Ağoğlan məbədi
C) Lerikdə Oğlanqala
D) Çıraqqala (Şabran)
E) Amaras monastırı

41. Göstərilənlər zəifləməsinə səbəb olmuşdu:
- *Qonşu türk xalqı olan peçeneqlərin hücumları*
- *Dövlətin ərazisində müxtəlif dinlərin yayılması*
A) Xəzər dövlətinin
B) Qərbi Hun dövlətinin
C) Qaraxanlı dövlətinin
D) Qəznəvi dövlətinin
E) Ağ Hun dövlətinin

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

42. Uyğunluğu müəyyən edin:




A) 1, 2 B) 3, 4 C) 1, 4
D) 2, 5 E) 3, 5

43. Qədim Yunanıstanın e.ə VIII əsr və Şumerlərin e.ə III minillik tarixi üçün ümumi cəhətdir:
A) Şəhər – dövlətlərin yaranması
B) Dorilərin yürüşü
C) Torpağa görə bütün borcların ləğvi
D) Xalq yığıncağının ali hakimiyyət orqanına çevrilməsi
E) Roma tərəfindən işğal edilməsi

44. Xəritədə ulduz ilə işarələnmiş ərazinin tarixi üçün xarakterikdir:




1. E.ə IV minillikdə təkər ixtira edilməsi
2. Hökmdarların məzarına ehramların inşa edilməsi
3. Ən qədim müqəddəs qanunlar toplusunun “Veda” adlanması
4. Dünya tarixinin ilk imperiyasının yaranması.
5. Hetlər ilə Kadeş müqaviləsinin imzalanması

A) 3, 5 B) 1, 2 C) 2, 3
D) 1, 4 E) 2, 5

45. Qədim Romanın respublika dövründə baş verməyib:
A) Plebeylərin xalq tribunu seçmək hüququ qazanması
B) Makedoniya və Yunanıstanın işğalı
C) Vandalların Romanı talan etməsi
D) 12 lövhə qanunlarının qəbul edilməsi
E) Karfagenin Roma əyalətinə çevrilməsi

46. **Mətn-1**
*Altay dağlarının ətəklərində məskunlaşan Aşina nəsli Avar dövlətinə tabe olub, dəmirçiliklə məşğul olurdu. Bu nəslin başçısı avarlara qarşı üsyan qaldıraraq yeni dövlət qurdu.*
**Mətn-2**
*Çindəki Tan sülaləsini himayə edərək, onları qiyamçı çıxışlarından və qonşuluqdakı tibetlilərin hücumlarından qoruyurdular. Qarşılığında Çindən ipəklə xərac alırdılar.*
I Mətndə bəhs edilən dövlətdən fərqli olaraq, II mətndə bəhs edilən dövlət üçün xarakterikdir:
1. Ötükənin paytaxt seçilməsi
2. Çinin asılı hala salınması
3. Hökmdarın maniçiliyi təbliğ etməsi
4. IX əsrdə süquta uğraması

A) 1, 2 B) 3, 4 C) 2, 3
D) 2, 4 E) 1, 3

47. Qərb Hunlarına aid ***doğru*** cavabı müəyyən edin:
A) İlk başçısı Tanrı xan hesab edilir
B) Attilanın oğlu Ağ Hunlar ilə döyüşdə həlak oldu
C) Dini pərakəndəlik dövlətin süqutuna səbəb oldu
D) Balamir Katalaun düzənliyində Qərbi Roma ilə döyüşdü
E) Kiyev knyazının yürüşü nəticəsində süquta uğradı

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

48. Aşağıdakı xüsusiyyətləri müasir xəritədə rəqəm ilə işarələnmiş dövlətlərə uyğunlaşdırın:




a. 532-ci ildə Sasani dövləti ilə sülh bağladı
b. Verden müqaviləsi nəticəsində parçalandı
c. VI əsrdə slavyanlar imperiya ərazisində məskunlaşdı
d. Roma imperiyasından sonra ilk dəfə Qərbi Avropanı yenidən birləşdirdi

A) 1-a; 2-b,d
B) 1-b; 2-a
C) 1-a,c; 2-d
D) 1-b,d; 2-a,c
E) 1-a; 2-c

49. Cavanşir Əməvilər sülaləsinin hakimiyyətə gəlməsindən sonra:
A) Albaniya dövlətinə başçılıq etməyə başladı
B) Bizans imperatoru II Konstantin ilə görüşdü
C) Bizans ilə uzaqlaşaraq Xilafətlə münasibətləri nizama saldı
D) Sasani şahı III Yəzdigərd tərəfindən mükafatlandırıldı
E) Hakimiyyəti qardaşı Varaz Tiridata təhvil verdi

50. XIX əsrin 30-cu illərində çarizmə qarşı baş verən üsyanların səbəblərindən ***deyil:***
A) Komendant idarə üsulunun tətbiqi
B) İltizam sisteminin mövcud olması
C) Vergi və mükəlləfiyyətlərin artırılması
D) Köçürmə siyasəti
E) Qaçaqçılıq hərəkatının geniş yayılması

51. XX əsrin əvvəllərində neft sənayesindən fərqli olaraq Mis sənayesində:
A) Ağır əl əməyini elektrik enerjisi əvəz etmişdi
B) Köhnə buxar mühərriklərindən daha çox istifadə olunurdu
C) 1900-1903-cü il iqtisadi böhranı mənfi təsir etməmişdi
D) Üstünlük milli sahibkarların əlində idi
E) Qabaqcıl texnologiyadan çox zəif istifadə edilirdi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

52. Qaraxanlı dövləti XI yüzilliyin 40-cı illərində:
A) Səlcuqlar və qurluların hakimiyyəti altına düşdü
B) İki yerə parçalandı
C) İslam dinini dövlət dini elan etdi
D) Hindistanın şimal-qərb torpaqlarını ələ keçirdi
E) Dəndənəkan döyüşündə qalib gəldi

**Açıq tipli test tapşırıqları:**

53. Müsəlmanların ilk islam dövlətinin əsasını qoyduqdan sonrakı tarixi üçün xarakterikdir:
1. Bədr döyüşü
2. Məhəmməd peyğəmbərin Yəsribə köçməsi
3. Vestqotların məğlub edilməsi
4. Puatye döyüşündə məğlubiyyət

54. Erkən Tunc dövrünə uyğun gəlir:
1. Bir neçə qəbiləni birləşdirən tayfalar yarandı
2. Kür-Araz mədəniyyəti kimi də səciyyəvidir
3. Köçmə yaylaq maldarlığı yarandı
4. Boyalı qablar mədəniyyəti formalaşdı
5. İlkin şəhər yaşayış məskənləri yarandı

55. Xronoloji ardıcıllığı müəyyən edin:
1. Eldənizin gürcü qoşunlarını məğlub etməsi
2. Xorasan, Rey və Həmədanın Xarəzmşah Təkəş tərəfindən tutulması
3. Cəlaləddinin Təbrizi tutması
4. Şirvanşahın hərbi qüvvələrinin III Georgiyə kömək etməsi

56. Səbəb – Nəticə əlaqələrinin **doğru** göstərildiyi cavabı müəyyən edin:

| № | Səbəb | Nəticə |
|---|---|---|
| 1 | Respublika dövründə hakimiyyətin bir neçə varlı patrisi və plebey ailələrində olması | Roma Respublikasının demokratik dövlətə çevrilə bilməməsi |
| 2 | E.ə III əsrdə Romalıların bütün İtaliyanın işğalını başa çatdırması | Respublika quruluşunun yaranması |
| 3 | Respublikanı monarxiya ilə əvəz etmək istəyi | Qay Yuli Sezarın Senatda öldürülməsi |
| 4 | Muzdlu Roma ordusunun sərkərdələrə sədaqət andı içməsi | E.ə I əsrdə sərkərdələr arasında vətəndaş müharibələrinin başlanması |
| 5 | Artıq torpaqların alınmağa və yoxsullara paylamaq qanununun qəbul edilməsi | Tiberinin xalq tribunu təyin edilməsi |

57. Uyğunluğu müəyyən edin:
1. Qeyrət partiyası
2. Difai partiyası
3. Hümmət təşkilatı
a. Azərbaycanlı fəhlələr arasında siyasi iş aparmaq məqsədi daşıyırdı
b. İlk milli partiya idi
c. Əhməd bəy Ağayevin rəhbərliyi ilə yaradılmışdı
d. 1913-cü ildə yaradılmışdı

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *__Cavab vərəqində__* cavablandırın.**

Baş nazir Eynüddövlə demokratik qüvvələrə qoşulmuş tacirləri, ruhaniləri və ümumiyyətlə əhalini qorxutmaq, onları inqilabi hərəkatdan uzaqlaşdırmaq məqsədilə qəndin bahalanmasını bəhanə edərək, tacirləri həbs etdirdi. Bu hadisə tacirlərin, alverçi və ruhanilərin həyəcanına səbəb oldu. Bütün bazar tətil etdi. Milli burjuaziya nümayəndələri, xırda burjuaziya və sənətkarlar minlərlə adam ruhanilərin evlərinə toplaşaraq hökumətə qarşı etiraz yığıncaqları təşkil etdilər. Bununla da inqilab başlanmış oldu. Etiraz yığıncaqlarının, ümumiyyətlə, inqilabın ilk dövründə çıxışların hazırlanmasında, hərəkatın idarə edilməsində İnqilab Komitəsinin, "Əncümənе-məxfi"nin mühüm təşkilatçılıq rolu var idi.

58. Mənbədə bəhs olunan inqilab zamanı etirazçıların tələblərini tarixi biliklərinizə əsasən müəyyən edin.

59. Mənbədə bəhs olunan inqilabın başlama və bitmə tarixlərini müəyyən edin:

60. Mənbədə bəhs edilən hərəkat dövründə əncümanların xalq kütlələrinin xeyrinə həyata keçirdiyi islahatların azı ikisini müəyyən edərək yazın:

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

## Ədəbiyyat

61. "Dərzi şagirdi Əhməd" nağılının məzmunu ilə bağlı verilən hadisələrdən hansı digərlərindən sonra baş verir?
A) Bütün İsfahanı çıraqban eləyib qırx gün, qırx gecə toy eləməyə başladılar.
B) Əhməd almaların sirrini açır.
C) Vəzir Allahverdi xan Əhmədlə qohumluğun başucalıq gətirəcəyini deyir.
D) Pəri Soltanın yeddi ilin baci-xəracıyla və cehiziylə göndərilməsi tələb olunur.
E) Kəbin kağızına hər iki tərəf qol çəkib öz möhürü ilə möhürlədi.

62. Əruz vəzni haqqında ***yanlış***, heca vəzni haqqında isə doğru fikir verilmiş bəndi müəyyən edin.

| | ***Əruz vəzni*** | ***Heca vəzni*** |
|---|---|---|
| A) | "Kitabi Dədə Qorqud"da olan şeirlər bu vəzndədir. | Bütöv söz prinsipi əsas götürülür. |
| B) | Azərbaycan ədəbiyyatında ən az işlənən bəhri rəcəzdir. | Hecaların hər misrada eyni sayda olması tələb olunur. |
| C) | Azərbaycan ədəbiyyatında 11 bəhri istifadə olunmuşdur. | Milli vəzn adlandırılır. |
| D) | Ahəng vurğu və intonasiya ilə formalaşır. | Klassik şeir bu vəzndə qələmə alınır. |
| E) | Uzun və qısa hecaların bir-birini izləməsi əsas götürülür. | Aşıq şeiri yanlız bu vəzndə qələmə alınır. |

63. Cədvələ əsasən ***uyğunsuzluğu*** müəyyən edin.

| ***Doğru*** | ***Yanlış*** |
|---|---|
| 1. Dastanlarda epik təhkiyə ilə lirik təqdimat vəhdətdə verilir.<br>2. Toy nəğmələri xüsusi melodiyanın müşayiəti ilə oxunur.<br>3. "Səməndər quşu" rəvayətində oda inam, quşa tapınma motivləri öz əksini tapıb. | 4. "Dəyirman" uşaq oturaq oyunudur.<br>5. "Gün çıx" nəğməsi uzun zaman yağan yağışın kəsməsi üçün ifa edilirmiş.<br>6. Yer adları ilə bağlı həm rəvayət, həm əfsanə növləri yayılmışdır. |

A) 1, 2, 6 B) 2, 3, 4 C) 1, 3, 5
D) 2, 3, 6 E) 1, 4, 5

64. Müəllif klassik üslubda şeir yazmaq qərarına gəlir. Aşağıdakılardan hansı fikrin müəllifin yazdığı şeirə xas olduğunu dəqiq deyə bilərik?
A) Milli vəznində olması
B) Ahəng vurğu və intonasiya ilə formalaşması
C) Misralarda uzun və qısa hecaların bir birini izləməsi
D) Bəndlər şəklində olması
E) Bütöv söz prinsipinin gözlənilməsi

65. Cədvəldə hansı rəqəmlərin yeri dəyişdirilsə, uyğunluq bərpa olunar?

| ***Metonimiya*** | ***Metafor*** |
|---|---|
| 1. Dönüb keçmişinə baxmazmı İran? | 4. Sakit axıb gecələr Bulaq nələr danışır? |
| 2. Azərbaycan tanımışdır vaxtsız qapı döyənləri. | 5. Üşüyən ürəyim yatır, dincəlir. |
| 3. Fikirlər qaynaşır yenə başımda. | 6. El səni çağırır, Vətən səni gözləyir. |

A) 3-6 B) 3-5 C) 1-5
D) 2-6 E) 3-4

66. Uyğunluğu müəyyən edin.




A) 1-a, 2-d, 3-e
B) 1-b, 2c, 3-f
C) 1-a, 2-d, 3-f
D) 1-b, 2-c, 3-e
E) 1-a, 2-c, 3-e

67. Lirik növlə bağlı doğru fikri müəyyən edin.
A) Əsas əlaməti müəllifin hiss-həyəcanlarının ifadəsidir.
B) Lirik qəhrəmanla şairin şəxsiyyəti hər zaman eyniləşdirilir.
C) Lirik əsərlər məzmunca, əsasən, üç qrupa bölünür.
D) Lirik növdə olan bütün əsərlər tərənnüm əsasında yazılır.
E) Geniş təsvirli, emosional xarakter daşıyır.

68. Klasteri tamamlayın.




A) Məqtə beytdə şairin təxəllüsü verilir.
B) İctimai və əxlaqi-fəlsəfi məzmun daşıyır.
C) "Parça" , "hissə" deməkdir.
D) Həcmcə kiçik olur.
E) Qafiyə quruluşu qəzəllə eyni deyil.

69. Nümunə ilə bağlı doğru fikri müəyyən edin.
*Ömür yollarında "rahat" gedənlər*
*Zirvələr başına ucala bilməz.*
*Təkərlər üstündə diyirlənənlər*
*Çatdığı mənzildə bənd ala bilməz.*
A) Cinas qafiyə işlənib.
B) Məhəbbət mövzusundadır.
C) Aid olduğu vəznin əsas tələbi uzun və qısa hecaların bir-birini izləməsidir.
D) Qoşmanın son bəndidir.
E) Misradaxili bölgüsü bütün misralarda eynidir.

70. Qədim dövr və intibah ədəbiyyatı ilə bağlı ***uyğunsuzluğu*** müəyyən edin.

| | | |
|---|---|---|
| A) | Əsərlər hökmdarların tərifi ilə məhdudlaşırdı. | ***Yanlış*** |
| B) | Azərbaycan ədəbiyyatı ümumtürk ədəbiyyatının tərkib hissəsi kimi formalaşmışdır. | ***Doğru*** |
| C) | Dini mövzularda da əsərlər yazılırdı. | ***Yanlış*** |
| D) | VII əsrdən XI əsrə qədər olan dövrdə ədəbiyyatımız yalnız ərəb dilində yaranırdı. | ***Yanlış*** |
| E) | Bu dövrdə divan ədəbiyyatının əsası qoyulur. | ***Doğru*** |

71. "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu" boyla bağlı doğru fikri müəyyən.
A) Qazan xan qara qayğulu yuxu görür.
B) Qazan xan Ağca qala Sürməliyə gəlib qırx otaq tikdirdi.
C) Qazanın 10 min qoyunu düşmən hücumuna məruz qalır.
D) Qaragünə kafirin bayrağını qılınclayır.
E) Boy Qazan xanın ova getməsi ilə başlayır.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

72. Hansı anlayışla bağlı xüsusiyyət ***verilməyib***?
● Ərəbcə “hissə” “parça” deməkdir.
● Həyat hadisələrini təsvir etmək və ümumiləşdirmək üçün yazıçının əsas götürdüyü prinsipdir.
● Əsərdə baş verən hadisələrin tarixi, yeri, surətlərin hərəkəti haqqında qısa məlumat verən hissədir.
● Əxlaqi-tərbiyəvi səciyyə daşıyır.
A) Təmsil B) Remarka
C) Ədəbi məktəb D) Qitə
E) Bədii yaradıcılıq metodu

73. Nümunənin misradaxili bölgüsünü müəyyən edin.
*Ömrün fəsilləri tez başa gəldi*
*Yayı bəhərlidi, qışı bəhərsiz.*
*Bir vaxt ayıldım ki, heydən düşmüşəm.*
*İllər öz atını çapdı yəhərsiz.*
A) 6+5 B) 4+3+4
C) 4+4+3 D) 5+6
E) 3+4+4

74. Eyler-Venn diaqramına əsasən müqayisə edib doğru fikirləri müəyyən edin
I. *Dost olan dostundan çəkməz ayağı,*
*Piltə yanar, şölə çəkər a yağı.*
*A beymürvət, a beyinsaf, a yağı.*
*Bəs niyə demirsən mina, yamanəm.*

II. *Səhər-səhər çıx qarşıma,*
*Dur, başına dolandığım!*
*Oğrun gözlə, qıyqaçı bax,*
*Gör, başına dolandığım!*




1. Misradaxili bölgüsü 4+4 şəklindədir.
2. Qoşmanın son bəndidir.
3. Heca vəznindədir.
4. Gəraylının birinci bəndidir.
5. Cinas qafiyə işlənmişdir.
A) I-5 II-1,4 III-3
B) I-1,5 II-2 III-3
C) I-2,3 II-5 III-1,4
D) I-4,5 II-1,2 III-3
E) I-2 II-1,4 III-5

75. “Tuyuq” ilə bağlı doğru fikri müəyyən edin.
A) Cəmi beş misradan ibarət olur.
B) Həzəc bəhrində yazılır.
C) Türk şeir janrıdır.
D) Milli vəzndə qələmə alınır.
E) İlk tuyuğu M.Gəncəvi yazmışdır.

76. “Basatın Təpəgözü öldürdüyü boy”la bağlı doğru ***olmayan*** fikri müəyyən edin.
A) Basatın Təpəgözü öldürəcəyinə Qazan xan inanmırdı.
B) Qapaqqan kişinin arvadı Basata qardaşının ölüm xəbərini verir.
C) Oğuz xanın ilxıçısı qamışlıqdan çıxan insana bənzəyən şirdən xəbər gətirir.
D) Basat Bunlu qoca və Yapaqlı qocanı atasına müjdəçi göndərir.
E) Təpəgözün süd qardaşı olduğunu biləndən sonra da ona rəhmi gəlmir.

77. Doğru fikri müəyyən edin.
A) “Xan sarayı” və “Ağıllı uşaq” əsərləri eyni ədəbi növə və janra aid əsərlərdir.
B) “Dərzi şagirdi Əhməd” və “Ağıllı uşaq” əsərlərinin qəhrəmanları eyni sualla üzbəüz qalır və öz ağıllarının məharəti ilə sualın cavabını tapırlar.
C) “Xan sarayı” və “Səməndər quşu” əsərləri eyni janra aid əsərlərdir.
D) “Ağıllı uşaq” əsərinin aid olduğu janrın dörd növü var.
E) “Çahargah” və “Dərzi şagirdi Əhməd” əsərlərindəki vəzir obrazları baş qəhrəmanın həyatını xilas edir.

78. “Salur Qazanın evinin yağmalandığı boy”la bağlı doğru fikri müəyyən edin.
A) Burla xatun Qazan xana köməyə gəlir.
B) Qazan xan oğlunun qaçdığını zənn edir.
C) Uruz Qazan xanla düşmən arasında olan döyüş səhnəsində iştirak edir.
D) Uruz Qazan xandan geri qayıtmasını istəyir
E) Boyda Qazan xana köməyə gələn bəylər arasında ilk qardaşı özünü çatdırır.

79. ***Uyğunsuzluğu*** müəyyən edin.

| | |
|---|---|
| A) *Yoxluqdan varlığa bir yol tuşlanır.* – ***bədii təzad*** | ***doğru*** |
| B) *Bizə düşən səmada gün tutulmuş, Ay Allah!* – ***inversiya*** | ***yanlış*** |
| C) *Dağlar, yamaclar onun hüzuruna salama gəlsin.* – ***metonimiya*** | ***yanlış*** |
| D) *Göylər çalxalanır yenə dəniztək.* – ***metonimiya*** | ***doğru*** |
| E) *Hikmət kitabıdır sənin surətin.* – ***metafor*** | ***yanlış*** |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam1

80. Uyğunluğu müəyyən edin:




A) 2, 4, 6 B) 1, 4, 5 C) 3, 4, 5
D) 2, 3, 5 E) 2, 3, 4

81. Boş xanalara uyğun fikri müəyyən edin.




A) Bayatı – Hər misrada 8 heca olur.
B) Rübai – Əruz vəznində yazılır.
C) Qitə – Klassik üslubda yazılır.
D) Qəsidə – Bəndlər şəklində olur.
E) Qoşma – İlk bənd *abcb* şəklində qafiyələnir.

82. Heca vəznində yazılan birbəndli dördlük hansıdır?
A) Rübai
B) Gəraylı
C) Qoşma
D) Bayatı
E) Tuyuq

**Açıq tipli test tapşırıqları:**

83. İntibah dövrü ədəbiyyatında epik növə aid doğru fikirləri müəyyən edin.
1. Yazılı ədəbiyyata aid əsərlər ərəb, fars və ana dilində yazılırdı.
2. İlk poemanın əsası qoyulur.
3. Müraciət mövzusu yalnız məhəbbət idi.
4. Geniş məzmun ifadə etmək üçün poemalar məsnəvi formasında yazılırdı.
5. İlk ana dilli mənzum hekayə qələmə alınır.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

84. ***Yanlış*** fikirləri müəyyən edin.
1. Nəzərdə tutulan bir söz əvəzinə başqa bir sözün işlədilməsi. – *Metafor*
2. Dastanlarda daha çox istifadə olunur. – *Qoşma və gəraylı*
3. Bədii əsərdə hadisələrin açılmasına zəifləməsinə deyilir. – *Zavyazka*
4. Hər beyt öz daxilində qafiyələnir. – Qəzəl
5. Təbiət cisimləri və heyvanların şəxsləndirilməsidir. – *Alleqoriya*

85. Kompozisiya ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Hadisələrin inkişafı və əsərin quruluşu ilə bağlıdır.
2. Epiloq əsərin sonunda verilən yığcam yekun hissədir.
3. Proloq əsərin əvvəlində verilən hikmətli fikirdir.
4. Peyzaj da kompozisiyanın ünsürlərindəndir.
5. Əsərdə verilən epiqraf hər zaman müəllifin özünə aid olmaya da bilir.

86. Uyğun ***olmayan*** fikirləri müəyyən edin.

| ***Doğru*** | ***Yanlış*** |
|---|---|
| 1. Alleqoriya olan bütün əsərlər təmsil hesab olunur.<br>2. Dramatik növün ilk nümunəsi XIX əsrə aiddir. | 3. Komediya, əsasən, nəzmlə yazılır.<br>4. Lirik ricət epik əsərlərdə olur. |

87. "Salur Qazanın evinin yağmalandığı boy"la bağlı uyğunluğu müəyyən edin.
1. Qazan xan
2. Şöklü Məlik
3. Qaraca çoban
a. Gördüyü yuxunu yozdurur.
b. Qazanda bir heyiflərinin qaldığını deyir.
c. Döyüşdə üç yerdən yaralanır.
d. Qara Tükən Məlikin başını kəsir.
e. Burla xatuna şərab paylatmaq təklifini verir.

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və 88-90 saylı tapşırıqları yerinə yetirin.***

***Sarayın sirri***

Bir zamanlar dəniz kənarında qızıl günəş kimi parlayan bir saray varmış. Sarayın sahibi – Qaran xan adında bir hökmdar imiş. Onun var-dövləti, xəzinələri, xidmətçiləri çox idi, amma ürəyi daima narahat idi. Hər gecə sarayın dəhlizlərində gəzər, "niyə xoşbəxt deyiləm?" – deyə öz-özünə sual verərmiş.

Bir gün saraya ağ saqqallı bir dərviş gəlir. Deyir:

– Xan, bu sarayda hər şey var, amma bir sirr gizlidir. Əgər o sirri tapsan, rahatlıq taparsan.

Xan maraqlanır:

– Hansı sirdir o?

Dərviş gülümsəyir:

– O sirri sənə heç kim deməz. Ancaq onu səssiz otaqda ürəyinlə dinləməlisən.

Xan həmin gecə sarayın ən dərin otağına girir. Otaqda nə bir işıq var, nə səs. Bir müddət sonra uzaqdan bir pıçıltı eşidir:

– "Sarayın gözəlliyi içindəkilərin mərhəməti ilə ölçülür."

Xan bu səsi eşidib diksinir. Ertəsi gün əmr verir: sarayda artıq heç kim kasıb kəndliləri qovmasın, hər kəsə eyni süfrədən yemək verilsin. Amma vəziri bundan narazı qalır və deyir:

– Xanım, siz saray qanunlarını pozursunuz. Kasıblar saraya gələrsə, nizam pozular.

Xan onun sözünə aldanır və qapıları yenidən bağlatdırır. O andan sonra sarayın divarları çatlamağa, gözəl naxışlar solmağa başlayır. Xan anlayır ki, sarayın sirri onun qızılında deyil, mərhəmətindəymiş.

Sonralar xalq bu hadisəni belə xatırlayır:

***"Daşdan saray qurmaq asandır, amma mərhəmətdən saray salmaq çətindir."***

88. Nümunənin aid olduğu janrı müəyyən edin və ona aid ən az iki xüsusiyyət yazın.

89. Qara hərflərlə verilmiş cümlə hansı şifahi xalq ədəbiyyatı janrı ola biləcəyini müəyyən edin və həmin janra aid iki xüsusiyyət yazın.

90. Mətndəki vəzir obrazı ilə "Dərzi şagirdi Əhməd" nağılındakı vəzir Allahverdi xanı müqayisə edin və hər birinin xarakterinə uyğun bir xüsusiyyət yazın.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

ImtahanBilikTeam1